**Abbasova Aytəmiz Abbas qızı** [44]

# SİTUASİYALARIN NƏZAKƏTSİZLİK YAXUD KOBUDLUQ KİMİ TƏHLİL EDİLMƏSİNƏ DAİR MÜXTƏLİF YANAŞMALAR

**Giriş:** Situasiyalar gərginləşdikcə nəzakətsiz, kobud ifadələrin işlənmə tezliyi də artır. Nəzakətsizliyin fərqli söhbətlərdə tədqiqatı dilçilərdə son illər, yəni 90-cı illərdən başlayır. Nəzəri olaraq tədqiq edən C. Qalpeper olmuşdur. O nəzakətsizliyin bir termin kimi dilçilikdə işlənməsi onun haqqında nəzəri təhlil aparmış və öz təsnifatını vermişdir. C. Qalpeperin tədqiatında fərqli situasiyaların təhlili zamanı nəzakətsiz məqamlar göstərilmiş, ancaq onun müxtəlif söhbət formalarında təhlili az aparılmışdı. Bu aspektdən tədqiqatın kifayət qədər olmaması eyni situasiyanı fərqli yanaşmalarla təhlilinə rast gəlirik. Bir tədqiqatçı eyni söhbətdə baş verən ziddiyyətli məqamları nəzakətsizlik kimi təsnif edirsə, digər tədqiqatçı həmin vəziyyəti kobudluq kimi təhlil edir. M. Kinpoenter müxtəlif söhbət formalarında yaranan üzləşmələri kobudluq kimi təhlil edir. Ziddiyyətli məqamları kobudluğun dərəcələrinə görə qruplaşdırır. Söhbət zamanı yaranan aqresiyanı C. Qalpeper birinci nəzakətsizlik çərçivəsində təhlil edir, ancaq gərgin vəziyyətin təhlilində işlədilmiş xoşagəlməz davranış və ifadələri kobudluqla əlaqələndirir.

Zidiyyətli, aqressiv situasiyaların baş verməsiilə yaranan konfliktlərdə nəzakətsiz, kobud davranış və danışıq hallarına təsadüf olunur. Belə konfliktlərdə uyğun davranış və danışıq üsulu kimi R. Baskal əməkdaşlıq ünsiyyətindən istifadə etməyi məsləhət görür. O bildirir ki, bir nəfərin yaxud qrupun birlikdə mübarizə aparmasına baxmayaraq belə konfliktlərin baş verməsi qaçılmazdır. Sadəcə belə situasiyaların gərgin olması və ya əksinə, yumşaldılması işçi və idarəçidən asılıdır. Gərginliyin artması ilə yaranan situasiyalarda baş verən kobudluğun təhlili üçün bir nümunəyə diqqət edək: Meri və Peter birlikdə işləyirlər. Peter istənilən bir işdə gec razılaşan, nisbətən kobud, Meri isə üzüyola bir işçidir. Bir gün Meri üçün çətin və gərgin iş günü idi. Həmi vaxt Peter Meriyə deyir:

*"Qurtarmış olacağın məktublar hansı cəhənnəmdədir, Meri?"*

Bu fikirdə bir kobud yanaşma var, ancaq bir az yüngül formadadır. Merinin cavabı ilə gərginlik arta bilər. Meri isə deyir:

*"Ey! Başımı ağrıtma. Razılaşmışdıq ki, gələn həftəyə qədər bu məktublara ehtiyac olmayacaqdı." ("Hey don't bite my head of… we agreed those letters weren't needed until next week. Why aren't you getting my case. You will get them").*

Burada Merinin gərgin olması aydın görünür. Bu tərzdə danışması ilə konflikt gərginlik daha da artır. Peterin cavabı:

*"Meri, mənə ağıl öyrətmə … . Nəyisə dağınıq etməyin birinci dəfə deyil ki!"*Burada Peterin işlətdiyi *("mənə ağıl öyrətmə")*situasiyanı daha da gərginləşdirir (6. 18).

Biz bu söhbətdən görürük ki, bir razılaşma əldə olunmayacaq, çünki yumşalması deyil, daha da gərginləşməsi baş verir, hər iki tərəf kobud ifadələrdən istifadə edir. Fikrimizcə, belə söhbətlərdə uğurlu bir nəticə əldə edilməsi üçün tərəflərdən biri cavabında səmimi olmalıdır.

Qeyd edək ki, belə söhbətləri təhlil edərkən, işlənən xoşagəlməz ifadələri bəzi tədqiqatçılar (C. Qalpeper, D.Bousfild) nəzakətsizlik kimi qiymətləndirir. C. Qalpeper belə situasiyaları həqiqi nəzakətsizlik (inherent impoliteness) hesab edir (3, 349).

Bəzi tədqiqatçılar isə düşünürlər ki, sosial replika çatışmazlığından nəzakətsiz ifadələrin tez-tez işlədilməsi anonimliyə səbəb olur. Buna görə də onlar (C.Suler, B.Danet) bərabərlik fenomenini təklif edirlər. Digərləri isə təsdiq edirlər ki, sosial normalara marağın azalması və kobud ifadələrə meylin artması mövcuddur. Ancaq T.Postmes,R.Spiyəz və M.Lii bu fikirlərlə razılaşmırlar, onlar iddia edirlər ki, anonimlik ümumi normalara zidd olan xüsusi qrup normalarının artmasına səbəb ola bilər və bu da qrup daxili ədalətsizliyə və hətta qrupdan kənar düşmənçiliyə səbəb ola bilər. Buna görə də xüsusi qrup normaları yəni yerli normalara ümumi sosial normaların qorunması naminə onlara etinasız yanaşılmalıdır (5, 695).

Deməli, burada iki fərqli yanaşma yaranır ki, bir qismi bildirir ki, anonimlik qalsın, digərləri isə onun qalmasının böyük fəsadlara səbəb olacağını iddia edirlər. Bu iki yanaşma nəzakətlilik kateqoriyasının tədqiqindəki iki fərqli yanaşma ilə əlaqələndirilə bilər. İkinci mərhələ nəzakətliliyin nəzəri məsələlərinə əsaslanır, birinci mərhələ isə söhbət zamanı iştirakçılar tərəfindən dəyərləndirilən nəzakətli yaxud nəzakətsiz davranışın yaranmasına və onun anlaşılmasına əsaslanır. Hər iki mərhələ nəzakətlilik və nəzakətsizlik kateqoriyasının daha ətraflı başa düşülməsinə kömək edir. Qeyd edək ki, anonimliyin qalması məsələsi nəzakətsizliyi ifadə etdiyi halda, onun gərginliyi daha da artırması isə nəzakətsizlikdən kobudluğa keçidi təmin edir.Bu məsələ ilə bağlı M. Kinpoenterin qruplararası kobudluq təsnifatını verəcəyik, eyni zamanda kobudluqla bağlı iki növ təsnifatlar qrupunu təhlil edəcəyik. Bu bölmədə kobudluq C. Qalpeperin nəzakətsizlik anlayışı ilə eyni səviyyədə təsnif edilir, eyni zamanda həm mədəni cəhətdən neqativ dəyərləndirilən müəyyən davranışlar, həm də kontekstdən asılı olaraq yaranan neqativ davranış növlərini ifadə edən bir termin kimi təhlil olunur. Deməli, neqativ fikirlər, yaxud davranışlar inciklik yaradır, ya da incikliyin yaranmasına səbəb olması güman olunur. Belə hərəkət yaxud ifadələr kobud və nəzakətsiz mənanı bildirir. Burada toxunulacaq məsələlərdən biri də kobudluq və ona yaxın olan anlayışın yəni, nəzakətsizliyin aralıq sərhəd kimi işlənməsi və müxtəlif tədqiqatçıların bu məsələ haqqında fərqli yanaşmaları təsnif olunur. Kobudluğu ifadə edən

[44] **Azərbaycan Dillər Universiteti Ünvan: Rəşid Behbudov küç. 134. aytemiz.abbasova@mail.ru**

vasitələrlə tez-tez qarşılaşmaların səbəbləri anonimliklə də əlaqələndirilir ki, bu da, daha çox internet müzakirə formlarında rast gəlinir. Deməli, belə ifadələrin işlənmə tezliyi anonilmliyə əsaslanır, yəni bizim belə vasitələrlə qarşılaşmağımız həmin ifadələrdən gizli istifadə olunmasıdır.Bunula bağlı tədqiqatçıların müxtəlif fikirləri var. Bir qrup tədqiqatçı(T.Postmis, R. Spiyəz, M.Lii) komputer media diskursunda anonimliklə bağlı sosial psixoloji təqiqat aparmışlar və əldə etdikləri nəticəyə əsasən bildirirlər ki, belə ünsiyyətlər hiss edilməyən ola bilər, yəni onlardan daha bacarıqla istifadə olunur.

Kontekst daxili bir çox qarşılaşmalar, üzləşmələr şəxslər, yaxud qruplararasında baş verir, yəni mövzudaxili müraciət edənə ünvanlanan təhqir onun qrup üzvləri üçün nəzakətsiz, yaxud təhqiramiz qəbul olunur. Eyni zamanda bütöv qrupa ünvanlanan təhqir hər qrup üzvü tərəfindən neqativ anlaşılır və mövzu ilə bağlı qrup tərəfdarlarında da inciklik yarada bilər.

M. Kinpointer qruplararası kobudluğu iki formada təsnif edir: birinci növ- bir çox qrupların digər kənar qrupları aşağılamaq məqsədi ilə kobudluq strategiyalarından istifadə etməsinə əsaslanır. İkinci növ isə bəzi qrupların siyasi tənqid və sosial özünü müdafiə məqsədi ilə istifadə etdikləri kobudluqdan ibarətdir. Qeyd edək ki, bu qruplaşdırma tədqiqatçının kobudluq kateqoriyası ilə bağlı verdiyi təsnifatın qeyri əməkdaşlıq prinsipinə əsaslanan bölməsinə aiddir. (Non-cooperative, motivated form of rudeness)Kinpointerin qruplararası təsnifatı qruplarda və fərdlərin qrup mənsubiyyətində baş verən kobudluq hallarını təhlil edir. Burada qrup üzvlərinin fərdi sosial kimliyi qrup üzvlüyü üçün əsas hesab olunur. Qruplararası kobudluq qrup üzləşmələrində mübahisələrində xüsusi ilə həssas mövzularda baş verir. Belə mövzuların əksəriyyəti siyasi xarakter daşıyır.(4, 276) Nəzakətlilik kateqoriyası ilə diskursiv təsnifata əsasən R. Uotsun nəzakətlilik çərçivəsində adlandırdığı siyasi davranış müəyyən icmalarda (qruplarda) kənar adamlar tərəfindən kobud anlaşıla bilər(7, 19). Onu da qeyd edək ki, C. Qalpeper nəzakətsizlik çərçivəsində belə növ davranışın konteksdən kənar davranış hesab edir( 2, 3233). R. Uots və C. Qalpeperin fikirlərinə əsasən hesab edə bilərik ki, siyasi davranış, nəzakətsizlik, kobudluq kateqoriyalardan daha çox bir ölçü cihazındakı irəliləmə nöqtələrini göstərir.

Fikrimizcə, bu işlənmə zamanından və yerindən asılıdır. Deməli, qruplar arası üzləşmə siyasi mövzularda daha çox baş verir xüsusi ilə müxalifət və iqtidarı təmsil edən qruplar arsında belə qarşıdurmalar məkanından asılı olmayaraq, yəni istənilən ölkədə baş verir.Burada anonim ictmai onlayn müzakirələrində siyasi davranış, yaxud kobudluğun necə işlənilməsinə diqqət yönəlir. Belə müzakirələrdə üzbəüz sorğu-sualın olmaması qrup iştirakçılarının fikrlərini kobud çatdırmasına maneə olmur. Düzdür, kobudluğu təsdiqləyən, onun işlənməsinə zəmin yaradan əsas cəhət üzbəüz sorğu-sualdır. Ancaq ictimai onlayn müzakirələrində bunu ifadə etmək üçün digər vasitələr də istifadə olunur. Məsələn, göndərmələr(postings), yaxud alçaltmaq(belittle, degrade) məqsədi ilə işlənən emojilər. Bəzi məqamlara diqqət edək: birpostinq (göndərmə) bir iştirakçıya ünvanlandığı halda bu, bütöv qrup və ya kənar adam (tədqiqatçı, qrup ziyarətçisi) tərəfindən qəbul olunur və həmin mesaj qəbul edənin fikrincə kobud hesab olunur. Beləliklə, bir iştirakçıya ünavanlanan kobudluğun fərdi anlaşılması əhəmiyyətini itirir nəhayət, üzbəüz söhbətlərdə fərdi iştirakçıların şərti kobudluq vasitələrindən asılı olmayaraq danışıq normalarını, qarşılıqlı əlaqə normalarını müxtəlif başa düşəcəklər. Yuxarıda qeyd etdiyimiz bu iki istiqamət arasında aydın bir sərhəd yoxdur. Burada R. Uots və C. Qalpeperin bu barədə olan təsnifatlarının təhlilinə yekun olaraq və C. Qalpeper təsnifatını əsas tutaraq belə güman edə bilərik ki,bu istiqamətlər arasında bir körpü vardır. Bu körpü bizim bəzi elementlərin xüasusi ilə konteksdən kənar kobud məna verməsi haqqında şərti biliyimizdir ( conventionalised knowledge) və bu, bizim fon biliyimizin bir hissəsidir (schema, frame-based knowledge) (C. Qalpeper təsnifatı). Sosial danışıqların çox formasında öncədən məlum olan nümunələr işlədilir, buna baxmayaraq şərti kobudluq əlamətləri xüsusi konteksdə kobud şəkildə işlənir və bu tədqiqatçılar tərəfindən müəyyən olunur. Xüsusi icmaların belə əlamətləri necə dəstəklədiyini və onu şərh etdiyini görməyimiz üçün bu cəhətlərin harada və necə istifadə olunduğunu bilməliyik (R. Uots təsnifatı).

Qruplarası kobudluğun təsnifi zamanı R. Uots və C. Qalpeper təsnifatlarına əsaslanan iki mərhələni (istiqaməti) təqdim etdik və bu iki mərhələyə əsaslanaraq bu təsnifatın iki səviyyəsini göstərə bilərik. Birinci səviyyə ikinci istiqamət qruplararası kobudluğu müəyyən edir. Biz inanırıq ki, belə sistemdə istiqaməti hətta birinci istiqamətdən üstün tutaraq qəbul etmədə "dilin sitiuasiyanı necə yaratdığını" yaxud "situasiyanın dili necə yaratdığını" (1, 178) müəyyən etmək qeyri mümkün olar. Təhlilin ikinci səviyyəsi birinci mərhələni qəbul edir və ümumilikdə metapraqmatik şərhləri tədqiq edir.

**Nəticə:** Söhbət zamanı gərgin situasiyalarda işlənən xoşagəlməz ifadələrin nəzakətsiz, yaxud kobudluq kimi dəyərləndirilməsi gərginliyin artma yaxud azalmasından asılıdır. Deməli, tərəflər arasında bir razılaşma olarsa vəziyyətin yumşalması baş verəcək, əks halda, həmsöhbətlərin münasibətləri gərginləşər və nəzakətsizlikdən daha çox kobudluq baş verər.

Sosial ünsiyyətdə istifadə olunan replikaların nəzakətsiz,yaxud kobud situasiya kimi qiymətləndirilməsində tədqiqatçılar tərəfindən iki fərqli aspektdən yanaşılır. Birinci yanaşamaya görə sosial replika zamanı anonimliyin saxlanması nəzakətsizliklə nəticələnir. İkinci aspektdən təhlilə görə onun (anonimliyin) qalması böyük fəsadlara səbəb olur və kobudluq baş verir. Qruplarası ünsiyyətin təhlilində müxtəlif təsnifatlar var. Bu söhbət forması həm nəzakətlilik, həm nəzakətsizlik, həm də kobudluq səviyyələrində təhlil edilib. Bu məsələ ilə bağlıR. Uotsun nəzakətlilik çərçivəsində adlandırdığı siyasi davranış müəyyən icmalarda (qruplarda) kənar adamlar tərəfindən kobud anlaşıla bilər. C. Qalpeper nəzakətsizlik çərçivəsində belə növ davranışın konteksdən kənar davranış,M. Kinpointer isə qruplararası üzləşmə hesab edir. R. Uots və C. Qalpeperin fikirlərinə əsasən belə nəticəyə gəlirik ki, siyasi davranış, nəzakətsizlik, kobudluq kateqoriyalardan daha çox bir ölçü cihazındakı irəliləmə nöqtələrini

göstərir: nəzakətlilik ► nəzakətsizlik►kobudluq.

**Ədəbiyyat**


1. Bousfield D., Impoliteness in interaction, John Benjamin publishing house, Amsterdam, Philadelphia, 2008, 281 s.
2. Culpeper J., Conventionalised impoliteness formulae, Journal of Pragmatics 42, 2010, 3232–3245.
3. Culpeper J., Towards an anatomy of impoliteness, Journal of Pragmatics 25, 1996, 349-367.
4. Kienpointner M. Varieties of rudeness, Functions of Language 4,2, John Benjamin publishing house, Amsterdam, 1997, s.251-287.
5. Postmes T., Spears R., Lea M., Breaching or building social boundaries? Side-effet of computer-mediated communication. Communication Research vol. 25 No.6, Saga Publications, Inc., 1998, s.689-715.
6. Robert B. Defusing hostile costumers. Canada: Casselman Ontario, 2010
7. Watts R. J., Politeness, Cambridge: Cambridge university press 2003, 304s.



**XÜLASƏ**

Ünsiyyət zamanı həmsöhbətlərin bir-birini səhv anlaması, zidiyyətli situasiyanın daha da gərginləşməsi nəticəsində söhbət iştirakçıları xoşagəlməz ifadələr işlədir, yaxud qəbul edilməyən davranışlar baş verir. Belə linqvistikvə ekstra-linqvistik vasitələr müxtəlif söhbət formalarında təsadüf edilir. Müxtəlif söhbətlərə onlayn və oflayn müzakirələr aid edilir. İnternet müzakirələrində aparılan tədqiqatlar emojilərin və qısaltmaların təhlili ilə məhdudlaşmır və hal-hazırda sürətlə inkişaf edən bir tədqiqat sahəsidir. Üzbəüz söhbətlərdə intonasiya və qeyri-verbal vasitələr rəqəmsal kontekstdən asılı olan xüsusiyyətlərə uyğun durğu işarələrindən və emojilərdən istifadə olunur. Komputer vasitəçiliyi ilə yerinə yetirilən söhbətlər müxtəlif tədqiqat sahələrində təhlil edilib. Praqmatikada isə sosial media şəbəkələrində, eləcə də instaqram, feysbuk, votsap kimi söhbət yerlərində dilin təhlili zamanı kodlu sözlər (code switching), cinsiyyət, nəzakətsizlik və kobudluq kimi kateqoriyalara diqqət yetirilir. Bu məqalədə isə əsas diqqət son iki kateqoryanın (nəzakətsizlik və kobudluq) tədqiqinə və təhlilinə yönəlmişdir.



**Açar sözlər:**nəzakətsizlik, kobudluq, qəbul edilməyən ifadələr, aqressiv situasiyalar, fon biliyi, üzləşmələr, üzbəüz müzakirələr, onlayn platforma



**Summary**

**DIFFERENT APPROACHES TO ANALYZING SITUATIONS AS IMPOLITENESS OR RUDENESS**

During communication, the interlocutors misunderstand each other, as a result of the conflict situation becoming more intense, the interlocutors use unpleasant expressions, or unacceptable behavior occurs. Such linguistic and extra-linguistic means occur in various forms of conversation. Various conversations include online and offline discussions. Research in Internet discourse is not limited to the analysis of emojis and abbreviations, and is currently a growing field of research. In contrast to face-to-face conversations, online discussions use intonation and non-verbal cues, punctuation marks and emojis that are specific to the digital context. Computer-mediated conversations have been analyzed in various research fields. In pragmatics, when analyzing the language in social media networks, as well as in chat rooms such as Instagram, Facebook, WhatsApp, attention is paid to categories such as code switching, gender, impoliteness and rudeness. In this article, the main focus is on the research and analysis of the last two categories (impoliteness and rudeness).



**Keywords:** impoliteness, rudeness, inappropriate expressions, aggressive situations, background knowledge, argument, face-to-face discussions, online platform



**Резюме**

**РАЗЛИЧНЫЕ ПОДХОДЫ К АНАЛИЗУ СИТУАЦИЙ КАК НЕВЕЖЛИВОСТЬ ИЛИ ГРУБОСТИ**

Во время общения собеседники неправильно понимают друг друга, в результате чего конфликтная ситуация становится более напряженной, собеседники используют неприятные выражения или происходит неприемлемое поведение. Такие лингвистические и экстралингвистические средства встречаются в различных формах разговора. Различные разговоры включают онлайн и офлайн обсуждения. Исследования интернет-дискурса не ограничиваются анализом эмодзи и сокращений и в настоящее время являются растущей областью исследований. В отличие от личных разговоров, онлайн-дискуссии используют интонацию и невербальные сигналы, знаки препинания и эмодзи, которые специфичны для цифрового контекста. Компьютерно-опосредованные разговоры анализировались в различных областях исследований. В прагматике при анализе языка в социальных сетях, а также в чатах, таких как Instagram, Facebook, WhatsApp, внимание уделяется таким категориям, как переключение кодов, гендер, невежливость и грубость. В данной статье основное внимание уделяется исследованию и анализу последних двух категорий (невежливость и грубость).



**Ключевые слова:** невежливость, грубость, неуместные выражения, агрессивные ситуации, фоновые знания, аргумент, личные обсуждения, онлайн-платформа

**Rəyçi: dos. L.Ələkbərova**